Səh. 2 Nifrət dili – Azər Musaoğlu

Səh. 5 Bir qocaman şair vardı Qoçulu elində – Leyla Yusifova

Səh. 5 Qəzalı evdən qeydlər – Afiq Muxtaroğlu

Səh. 6 Milli mətbuatda izimiz – Esmira Ələkbərli

Səh. 3 Nə qazandıq, nə itirdik... – Hacı Bəkiroğlu

Səh. 4 MƏKTƏBLƏRDƏ İCBARİ BAZA TƏHSİLİ 9-CU DEYİL, 10-CU SİNİF MÜƏYYƏN EDİLİB

Səh. 7 Xatirələr – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 İYUL 2024-CÜ İL № 14 (209)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ƏDLİYYƏ NAZİRİ: İVANİŞVİLİNİN PREZİDENTLİYƏ NAMİZƏDLİYİ İRƏLİ SÜRÜLƏ BİLƏR



“Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının qurucusu Bidzina İvanişvilinin prezidentliyə namizədliyi irəli sürülə bilər.

Bunu jurnalistlərə açıqlamasında ədliyyə naziri Rati Breqadze deyib.

***“Əgər İvanişvili prezidentliyə namizədliyini irəli sürməyə qərar verərsə, əminəm ki, o, Gürcüstan tarixində ən yaxşı prezident olacaq”,*** – deyə Breqadze bildirib.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI PARLAMENT SEÇKİLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN 13 PARTİYANI QEYDƏ ALIB




Gürcüstanın Mərkəzi Seçki Komissiyası (MSK) 26 oktyabr 2024-cü ildə Gürcüstanda keçiriləcək parlament seçkilərində iştirak etmək üçün ərizə vermiş **28 partiyadan 13-nü qeydə alıb**. Bu barədə MSK-nın saytında məlumat verilib.

Son parlament seçkilərində iştirak etməyən və parlamentdə nümayəndəsi olmayan partiyaların ərizə vermə müddəti iyulun 15-də başa çatıb.

MSK-nın məlumatına görə, siyahıya keçmiş Baş nazir Giorgi Qaxariyanın “Gürcüstan naminə” partiyası da daxildir.

Qeydiyyatdan keçmiş bütün partiyalar 2024-cü il avqustun 1-dək ən azı 25 min seçici imzasını MSK-ya təqdim etməlidir.

## PARLAMENT MƏHBUSLARIN KÜTLƏVİ AMNİSTİYASI HAQQINDA QANUN LAYİHƏSİNİ DƏSTƏKLƏYİB



Gürcüstan parlamentinin deputatları məhbusların kütləvi amnistiyası haqqında qanun layihəsini birinci oxunuşda qəbul ediblər.

Qanun layihəsinin lehinə 82 deputat səs verib. Müxalifətin əksəriyyəti amnistiyanı hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının seçkiqabağı addımı hesab etdiyi üçün parlamentin iclasına qatılmayıb.

Qanun layihəsinə əsasən, **Gürcüstanda bütün məhkumların təxminən üçdə birinin cəza çəkməkdən tamamilə azad ediləcəyi və ya cəza müddətinin azaldılacağı gözlənilir.** Eyni zamanda, sayı 10 mindən çox olan məhkumların təxminən 10 faizi azadlığa buraxılacaq.

Amnistiya 2024-cü il iyulun 1-dək törədilmiş cinayət əməllərinə görə məhkum olunmuş şəxslərə şamil edilsə də, qatilləri, narkotik vasitələrin satışı ilə məşğul olan şəxsləri, “qanuni oğruları”, digər ağır və xüsusi ağır cinayətlər törətmiş şəxsləri əhatə etməyəcək. Qanunun payız sessiyasında ikinci və üçüncü oxunuşlarda qəbul edilməsi nəzərdə tutulur.

## BAŞ NAZİR: 2030-CU İLƏ QƏDƏR GÜRCÜSTANDA YOXSULLUQ ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ AZALA BİLƏR



Gürcüstan eyni sürətlə inkişaf etməyə davam edərsə, yoxsulluğun səviyyəsi 2030-cu ilə qədər əhəmiyyətli dərəcədə azala bilər. Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze “Rustavi-2” telekanalına müsahibəsində deyib.

***“Əlbəttə, biz yoxsulluğu sıfıra endirmək üçün hələ də Avropa standartlarına çatmaqdan uzağıq, lakin eyni şəkildə davam etsək, 2030-cu ilə qədər əhəmiyyətli dönüş nöqtəsi olacaq”,*** – deyə Baş nazir bildirib.

Kobaxidze vurğulayıb ki, yanvar-may aylarında Gürcüstanda iqtisadi artım 9,3 %, işsizlik səviyyəsi isə 16,4 % təşkil edib.



# NİFRƏT DİLİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bilmirsən isti havadandır, ya xlorlu sudan, mağazaya girirsən satıcı aldığın məhsulları az qalır başına çırpa, növbədə duran alıcı az qalır qarşısındakını təpiklə vurub üstündən keçə. Aptekdə də eyni mənzərədir, əczaçıdan dərman haqqında nəsə soruşursan, növbədə duranlar bir of çəkirlər ki, sual da, cavab da yadından çıxır. Növbələrdə bu mənzərə ilə qarşılaşmamaq üçün bazara girib qiymət soruşursan, satıcı zorla cavab verir, xiyarın qiymətini söyüş intonasiyası ilə deyir, almasan arxanca iki-üç sətir yerli söyüşlərdən, qarğışlardan da tolazlayır. Hələ elələri də var, qiymət soruşanda müştərinin onun satdığı məhsulu alıb-almamasını dəqiqləşdirməmiş qiymət demir, elə bil dövlət sirridir. Avtobusa minirsən sərnişinlər üzünə nifrətlə elə baxırlar, az qalırsan düşəsən; avtobusdan düşürsən sürücü elə hirslə saxlayır, az qalırsan maşının ön şüşəsindən eşiyə aşasan. Xəstəxanaya gedirsən nəzarətçidən tutmuş həkimə kimi elə münasibət göstərirlər, xəstələnməyinə peşman olursan. Meriyaya girirsən səni o qədər sorğu-suala tuturlar, elə bil Ağ Evə girirsən, axırda da soruşurlar ki, bəs bura niyə gəlmisən, sən də çaş-baş qalıb suala cavab verə bilmirsən, gözlərini döyə-döyə kor-peşman gətirdiyin sənədlərini də qoltuğuna vurub qayıdırsan evinə. Evdə də bütün bunlardan bir horu fikrini yayındırıb televizora baxmaq istəyirsən ki, bayaq mağazada, aptekdə, bazarda, xəstəxanada, meriyada rastlaşdığın mənzərəni – kini, nifrəti, minnəti, aqressiyanı, saxtakarlığı televizorda da görürsən...

İndi gəl bu qədər kobudluğun, aqressiyanın, nifrətin, saxtakarlığın içində normal insan kimi qal, adam kimi mağazaya, aptekə, bazara, avtobusa, xəstəxanaya, meriyaya gir-çıx. Adam kimi girməyə girəcəksən, amma çıxanda mütləq onların dalğasına köklənmiş olacaqsan, yoxsa ya gərək ürəyin partlayıb öləsən, ən azından şəkər xəstəliyinə-zada tutulasan, ya da yoqaya-zada yazılasan ki, o zəhrimar da buralarda qəhətdir.

Kiminlə mülayim, mədəni, insan dilində danışırsan, sənə nifrət dilində cavab verir. Adamların, xüsusən də satıcıların, sürücülərin, həkimlərin, orqan işçilərinin üzündən niyəsə həmişə zəhrimar yağır, insanlarla aqressiv, minnətlə, kobud, nifrət dilində danışırlar. Elə bil bunlara bu peşəni, vəzifəni, işi biz seçmişik, biz təyin eləmişik.

Əgər alıcılarla, müştərilərlə normal, adam kimi davrana bilməyəcəksənsə, mağazada, marketdə, bazarda nə itin azıb, get zooparkda işlə. Əgər üzündən köçürə bilmirsənsə, sənəd işlərindən başın çıxmırsa, vətəndaşın adını, soyadını səhv yazaraq yazığı get-gələ salırsansa, sənin nə itin azıb ədliyyə evində, meriyada, get çöldə toxa vur. Və yaxud da, əgər Hippokrand andı içib sonra da insanların qanını içəcəksənsə, sənin nə itin azıb xəstəxanada, get sallaqxanada-zada işlə və ilaxır.

Bilirik, dolanmaq, çörək pulu qazanmaq çətindir, gündə yüzlərlə insana xidmət eləmək asan deyil. Çoxu yuxarıda adı çəkilən bu peşələri heç özü seçməyib də, ya məcburiyyət qarşısında bacarmadığı işə girişib, ya da tanışlıqla, dayday vasitəsilə bacarmadığı işə təyin olunub. Səhv düşəndə yerimiz belə olur. Amma vicdan da yaxşı şeydir axı. İki eşşəyin arpasını bölə bilmirsiniz, heç olmasa yalandansa, etika xatirinə, insanlıq naminə üzünüz gülsün, insanlarla mülayim danışın, tərbiyəli davranın. Evdən çıxıb işə gedəndə problemlərinizi, milli, dini, siyasi maskalarınızı evinizdə qoyun, zəhərinizi insanların üzərinə tökməyin. Onsuz da bu ölkədə problem boğazdan yuxarıdır və bu problemlər qarşısında hamımız eyniyik, heç kəs birinci dərəcəli deyil, özünü buğda yeyib Cənnətdən çıxmış kimi göstərərək insanlara yuxarıdan aşağı baxmaqla sən bu problemlərin qarşısında fərqli ola bilməyəcəksən. Su kəsiləndə hamı üçün kəsiləcək, işıq sönəndə hamı üçün sönəcək, unun qiyməti hamı üçün qalxacaq, virusa hamımız yoluxacağıq, ölüm hamımızı haqlayacaq... Guya sən mənimlə nifrət dilində danışanda nəyin artacaq, haran böyüyəcək ki? İsa olub sol üzü çevirməyin çətin olduğu bu dünyada uzağı mən də sənə eyni dildə cavab verməK məcburiyyətində qalacam. Axı nifrət dilindən, eləcə də bütün dillərdən daha asan, hamının başa düşdüyü dil də var bu gəlimli-gedimli, son ucu ölümlü dünyada – sevgi dili. Bu dildə danışmaq istəmirsinizsə, susmaq qızıldır deyimini bəhanə edərək, heç olmasa susun. Axı qəzəbin yeganə dərmanı susmaqdır *(Sokrat).*

## "GÜRCÜ ARZUSU" VƏ "XALQIN GÜCÜ" PARTİYALARI PARLAMENT SEÇKİLƏRİNƏ VAHİD SİYAHI İLƏ QATILACAQ




Gürcüstanın hakim "Gürcü Arzusu" və "Xalqın Gücü" partiyaları parlament seçkilərində vahid siyahı ilə iştirak edəcək. Bu barədə "Gürcü Arzusu"nun icraçı katibi Mamuka Mdinaradze partiyanın seçki kampaniyasının və yeni mərkəzi ofisinin açılışında bildirib.

Onun sözlərinə görə, "Xalqın Gücü" ictimai hərəkat olaraq 2022-ci ildə "Gürcü Arzusu"nun deputatları tərəfindən yaradılıb.

2024-cü ilin mart ayında "Xalqın Gücü" hərəkatı partiyaya çevrilərək parlament seçkilərində iştirak etmək planlarını açıqlayıb. Partiya ABŞ və digər Qərb tərəfdaşlarını tənqid etməklə tanınır.

## SENTYABRDAN "HEPATİT B"YƏ QARŞI DƏRMAN PULSUZ VERİLƏCƏK




Sentyabr ayından etibarən Gürcüstan vətəndaşlarına "Hepatit B" virusuna qarşı pulsuz dərman veriləcək. Bunu Gürcüstanın səhiyyə nazirinin müavini Tamar Qabuniya bildirib.

"Son məlumatlara görə, ölkədə 80 min insan bu xəstəlikdən əziyyət çəkir. Xəstələrin pulsuz ala biləcəyi dərmanlar bahadır", – deyə nazir müavini bildirib.

Qeyd edək ki, Gürcüstanda "Hepatit B" ilə mübarizə üzrə dövlət proqramına profilaktika, diaqnostika və müalicə daxildir.

## GÜRCÜSTANIN YENİ BAŞ PROKURORU GİORGİ QABİTAŞVİLİ SEÇİLİB



Gürcüstan parlamenti Giorgi Qabitaşvilini Baş prokuror vəzifəsinə seçib. Bu prosesin lehinə 80 deputat yekdilliklə səs verib.

Qərara əsasən, Giorgi Qabitaşvili altı il Baş prokuror vəzifəsində olacaq.

Qeyd edək ki, Baş prokuror vəzifəsi İrakli Şotadzenin may ayında səhhəti ilə əlaqədar istefa verməsindən sonra boş qalmışdı.

Giorgi Qabitaşvili isə 2013-cü ildən baş prokurorun müavini vəzifəsini tuturdu. O, 2007-ci ildən Baş Prokurorluqda çalışıb.

## DANİMARKA GÜRCÜSTANA HƏRBİ YARDIMI DAYANDIRIB

Danimarka "Xarici təsirin şəffaflığı haqqında" qanuna görə Gürcüstana 4 illik hərbi yardımı dayandırıb. Bunu Gürcüstan parlamentinin üzvü Teona Akubardia Danimarka Xarici İşlər Nazirliyinin məktubuna əsasən bildirib.

Krallıq 2023-cü ildə Gürcüstana hərbi yardım göstərməyə başlayıb, büdcə 71,5 milyon Danimarka kronu (təxminən 10,376 milyon ABŞ dolları) təşkil edib.

Məktubda bildirilir ki, Danimarka Gürcüstan hökumətini Avro-Atlantik məkana qayıtmağa və Avropa İttifaqının islahatlar proqramına əməl etməyə çağırır.

Deputatın sözlərinə görə, bu vəziyyət Gürcüstanın nüfuzuna xələl gətirir, suverenliyinə və ərazi bütövlüyünə ciddi çağırışdır.

# YERLİ RASİSTLƏR, HEYVAN HAQLARI TƏRƏFDARLARI VƏ ƏLEYHDARLARI



Deyirlər ki, tarix təkrarı sevmir, amma o özü müxtəlif hadisələrin təkrarından ibarətdir. Tarixdə baş verən hadisələr müxtəlif cür bu gün də təkrar olunur. Sadəcə olaraq həmin hadisələr o qədər adi hal alıb ki, nəzərimizdə öz aktuallığını itirib. Sadəcə bir-biri ilə bağlı iki tarixi hadisəni yada salaraq bu mövzuya toxunmağa çalışaq.

Bu hadisələr insan haqları uğrunda mübarizə və rasizmdir. İnsanlığın şüurlu bir cəmiyyət kimi formalaşmağa başladığı bir dövrdən insan haqları, hüquqları və öhdəlikləri aktual məsələ olmuşdur. Bu mövzuya aid çoxlu konvensiyalar, təşkilatlar yaradılmışdır. Məqsəd ən ali varlıq olan insanın hüquqlarını qorumaq olsa da, tarix bu gün də buna, sözün əsl mənasında, nail ola bilməmişdir. Bu günün özündə də bizim hüquqlarımız pozulur, amma biz buna göz yumuruq, hüquqlarımızı müdafiə etmirik, edə bilmirik və bunu olduğu kimi gələcək nəslə ötürürük. Hələ öz hüquqlarını müdafiə edə bilməyən ali varlıqlar olan insanlar bu dəfə tarixə heyvan hüquqları terminini daxil edib. Hələ insanların hüquqlarının tapdalanmağa davam etdiyi 21-ci əsrdə insanlar heyvanların hüquqlarının müdafiəsi üçün mübarizə aparır, mitinqlər, yürüşlər təşkil edir, təşkilatlar yaradırlar. Kimisi veqan, kimisi vegeterian olur. Təbii ki, heyvanların da yaşamaq hüququ var, onların da qayğıya ehtiyacı var, amma gülməli olan hələ öz hüquqlarını müdafiə etməyi bacarmayan insanlığın başqa bir canlının hüquqları uğrunda mübarizə etməyidir.

Bizlər üçün itlərin mağazada sərbəst gəzməyi, avtobusda səyahət etməyi hələ qeyri-adi hal olarkən, dünyanın digər tərəfində insanlar heyvan hüquqlarını müdafiə etmək məqsədi ilə böyük təşkilatlar yaradırlar. Ötən günlərdə Qardabanidə mağazaya itin girməsinə qadağa qoyulduğunu gördükdə it sahibinin "hər yerdə itləri mağazaya buraxırlar, bircə Qardabani Avropadır, burada icazə yoxdur" deyə deyinə-deyinə getdiyinə şahid oldum. Deyəsən onun hələ Avropadakı heyvanlarla bağlı vəziyyətdən xəbəri yoxdur, Qardabanini ora ilə müqayisə edir. Qaldı ki, bu cür müqayisəyə, Qardabanini Hindistanla əlaqələndirmək daha düzgün olardı. Çünki burada da inəklərin hüquqları, demək olar ki, orada olduğu kimi qorunur, ən azından bu heyvanlar küçələrdə, parklarda, yollarda orada olduğu kimi azad bir şəkildə hərəkət edirlər. Bu mövzuda hindlilərdən tək fərqimiz inəyin ətindən qida kimi istifadə etməyimizdir. İtlərin mağazaya buraxılması məsələsində belə bir nüans da vardır ki, bunun əleyhdarları elə məhz digər müştərilərdir. Onlar itin qida məhsulları arasında dolanmasından şikayətlənirlər və bu onlar üçün qeyri-gigiyenik hal yaradır. Belə olduqda, bir tərəfdə heyvan, digər tərəfdə insan hüquqları qarşı-qarşıya durur.

Rasizm (irqçilik) mövzusuna gəldikdə isə, onu deyə bilərəm ki, nə qədər prevensiya olur olsun, rasist xarakter insanların daxilində həmişə mövcud olacaqdır. Həmişə xarici görünüşdən tutmuş geyim tərzinin müxtəlifliyinə qədər insan hər şeydə özünü qarşısındakından üstün tutur. Məsələn, Qardabanidə yaşayan hindliləri yəqin əksəriyyətiniz görmüş olarsınız. Şəxsən mən dəfələrlə onların irqçiliyə məruz qaldığının şahidi olmuşam. Mağazada dəfələrlə onların növbəsi əlindən alınıb, bəzi insanlar kassaya yaxınlaşanda onlarla arada xeyli məsafə saxlayırlar. Növbənin onların olduğunu dilə gətirəndə isə "bura bizim mağazadır", "burada yerli bizik" kimi ifadələr işlədənlər də olur. Bunu deyən o yerli sakinlərdir ki, öz həmyerlisinə rasist düşüncələr bəsləyir, qaldı ki, fərqli bir ölkənin nümayəndəsinə. Günəşli havada 40 dərəcə isti olanda şortik geyinib, eynək taxanlara dırnaq içində baxanlar, təbii ki, dərisinin rəngi fərqli olanlara yuxarıdan aşağı baxacaqlar.

Bu aralar bəzilərinin gündəmini çinli ilə evlənən Marneulidən olan xanım zəbt etmişdi. Hamı tək məqsədin pul olduğundan danışır. Bəzilərini isə onların nə yeyəcəyi maraqlandırır. İrqçilik o qədər hiss etdirilir ki, tarixin həqiqətən bir təkrardan ibarət olduğunu aydın bir şəkildə görmək olur. Əslində hadisələri təkrar edən məhz insanlar özləridir. Çünki onlar yalnız texnikanı inkişaf etdirirlər, özlərini yox. Özlərini hər şeydən üstün tutan insan oğlu hələ öz haqlarını qoruya bilmədiyi halda başqa canlıların hüquqları uğrunda mübarizə edir, öz yaşadığı dünyada həyat şəraitini qaydaya sala bilməyənlər başqa planetdə canlı həyatın izlərini axtarırlar. Bəziləri özlərini o qədər üstün tutur ki, "Mənim hüququm o yerdə bitir, harada ki, başqalarının hüquqları başlayır" sözü onlar üçün "Mənim hüququm başlayanda hamının hüquqları bitir" ifadəsinə çevrilir. Ona görə də hindlilərin inəklərə hörmət etdiyi qədər özündən müxtəlif əlamətlərinə görə fərqlənənlərə hörmət etmir.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# NƏ QAZANDIQ, NƏ İTİRDİK...



**Hacı Bəkiroğlu**
hacihaciyev@hotmail.com

Bu gün insanlar həyat tərzlərinin yüksəkliyini və ya rahatlıqlarını digər insanlara göstərmək üçün adətən bir-biriləri ilə yarış halındadırlar. Bu həyat tərzi bəlkə də bəzi insanlarda gerçəkdən də yaxşı səviyyədədir. Ancaq bir çoxları da var ki, özünü başqalarına göstərmək üçün və ya elit insanların arasında özünə yer qazana bilməsi üçün bu cür göstəriş oyunlarına ehtiyac duyurlar. Odur ki, bunun nəticəsi də bir çox hallarda yaxşı sonluqla bitmir. Mövzu ilə bağlı psixiatr Prof. Dr. Nevzat Tarhan bir müsahibəsində buyurur: "Göstəriş həvəskarı olmaq psixoloji olaraq patoloji bir müdafiə mexanizmidir. Bu, qeyri-sağlam, patoloji müdafiə mexanizmidir. Başqa sözlə, yalançı rahatlıq verir. Həmin an alqışlarla qarşılanır. Amma bir müddət sonra insanda saxta şəxsiyyət formalaşır. Davamlı nümayişlə qidalanmağa başlayır. Bu insanlar maraqlarını itirəndə depressiyaya düşürlər". O, sözlərinə "Özlərinin əhəmiyyətli və dəyərli olduqlarını düşünənlərin bəziləri bu duyğularını məşhur olmaqla, bəziləri qüdrətli olmaqla, bəziləri məqam-mövqe sahibi olmaqla, bəziləri də cəmiyyət içərisində müəyyən səviyyəyə gələrək barmaqla göstərilmələri şəklində təmin edirlər", – deyərək davam edir.

Bu göstəriş ucbatından yaxın çevrəmizdə də çox zaman şahidi olduğumuz bədbəxt hadisələr baş verməkdədir. Buna misal olaraq intiharları, boşanmaları, depressiyaya düşənləri göstərmək olar. Qonşunun evindən yüksək ev inşa etmək arzu və istəyi ilə ailəsini, övladlarını buraxıb illərlə xarici ölkələrə qazanc arxasıyca gedənləri də görməmiş, eşitməmiş olmazsınız yəqin ki.

Yuxarıda da vurğuladığımız kimi, göstəriş uğruna, başqaları ilə bəhsə girmək uğruna çox şeylərini itirənlərin şahidi oluruq. Bunların başında da ailə xoşbəxtliyi gəlir. Hələ elələri var ki, övladı dünyaya gələndə, ilk addımını atanda belə onun yanında ola bilmir, o xoşbəxtliyi arzu və istəkləri uğrunda fəda edirlər. Halbuki bu insanlar ailələrini, rahatlıqlarını göstərişə olan arzularının qabağına keçirə bilsələr daha xoşbəxt olardılar. Bəzən tanışlar da şikayətlənirlər ki, bəs insanlar neyləsinlər, burada iş yoxdur, qazanc yoxdur. Ailəsini, dolanışığını təmin etmək üçün xaricə iş arxasınca getmək eyib deyil. Burada söhbət öz məmləkətində işi olduğu halda, ailəsini dolandıra biləcək, hətta el arasında deyilən kimi, yastığın altına da bir şeylər yığa biləcəyi işini bəyənməyərək, bu gəlirlə qonşunun evindən daha yüksək bir ev tikə bilməyəcəyindən söhbət gedir.

Göstəriş həmçinin insanın mənəvi dünyasında da yıxıntılar yaradır. İnsanlara olan xoşgörüşü, sevgisi, məhəbbəti məhv olur. Bu düşüncələr nəticəsində insanın içərisində nifrət, kin, sui-zənn duyğuları ön plana çıxır. Əgər tarixə nəzər salsaq, ilk insanlardan olan Habil və Qabilin həyat hekayəsində biz bunun şahidi olarıq. Allaha təqdim olunan qurbanların birindən qəbul edilib, digərindən qəbul edilmədiyində, mənim qurbanım daha üstün idi düşüncəsi ilə qardaşını öldürdü. Demək olar ki, elə o zamandan da insanlarda göstəriş duyğusu qabarmış oldu. Mövzu ilə əlaqəli bir hədisi də diqqətinizə çatdırım. Rəsulullah (s.ə.s.) bu mövzuda sahib olacağımız qəlbi, həssaslığı hədisi-şərifində belə izah edir: "Həyat şərtləri sizinkindən daha aşağı olanlara baxın, sizdən daha yaxşı olanlara baxmayın! Bu, Allahın bəxş etdiyi nemətini xor gorməməyiniz üçün daha doğru bir davranışdır" (Müslim, Zöhd, 9).

Nəticə olaraq bu gün bizlər həyatımızı gözümüzün önündən keçirib bir hesabat çıxardaq, görək bizim göstərişlə əlaqəli nə kimi zəifliklərimiz var, bizlərə necə təsir edib. Qısası, baxaq görək bu imtahanda nə qazanıb, nə itirmişik...

## MƏKTƏBLƏRDƏ İCBARİ BAZA TƏHSİLİ 9-CU DEYİL, 10-CU SİNİF MÜƏYYƏN EDİLİB




Gürcüstan parlamenti "Ümumi təhsil haqqında" qanunda dəyişikliyi üçüncü oxunuşda 74 səslə qəbul edib. Bu o deməkdir ki, vacib baza təhsili 9-cu sinif əvəzinə 10-cu sinif müəyyən edilib.

Qanunda qeyd olunub ki, Gürcüstanda ümumi təhsilin üç pilləsi var: ibtidai (6 il – I-IV siniflər), baza (4 il – VII-X siniflər) və orta (2 il – XI-XII siniflər).

Ümumi təhsilin baza və orta pilləsinin müddətində dəyişikliklə əlaqədar qanun keçid müddəalarını nəzərdə tutur. Həmin müddəalar qanunvericilik normasının qüvvəyə minməsi ilə əlaqədar fərqli detalları konkretləşdirir. Xüsusilə ümumi təhsilin baza pilləsinin müddətində dəyişiklik 2024-2025-ci tədris ilində IX sinifdə olacaq şagirdlərə də aid ediləcək. Bu o deməkdir ki, 2024-2025-ci tədris ilində IX sinif şagirdləri X sinfə pilləni aşmadan keçəcəklər, yəni 2024-2025-ci tədris ilində IX sinif şagirdlərinin məcburi baza təhsili 1 il uzadılacaq.

Keçid müddəaları ilə müəyyən edilib ki, 2024-2025-ci tədris ili də daxil olmaqla ümumi təhsilin orta pilləsində X sinifdə statusu dayandırılmış, statusunu 2025-2026-cı tədris ilindən bərpa edən şagirdlər təhsilin orta pilləsini XI sinifdə davam edəcəklər, çünki onlar artıq baza pilləsini keçiblər, 2025-2026-cı tədris ilindən isə orta pillə 2 illik olacaq.

Keçid müddəalarında 2024-2025-ci tədris ilində orta pillənin X sinfə milli tədris planı ilə müəyyən edilmiş səviyyəni keçə bilməyən şagirdlər üçün spesifik qeyd var. Onlar 2024-2025-ci tədris ilində təhsili orta pillənin XI sinfində davam edəcəklər, çünki həmin dövrdə X sinif artıq baza pilləsinə aid olacaq, onlar isə bu dövrü keçmiş olacaqlar.

Akademik baxımdan geridə qalmanın aradan qaldırılmasını məktəb remediasiya proqramı ilə təmin edir. Bu, milli tədris planı ilə tənzimlənib. Pillələrdə dəyişiklik edilib – məcburi baza təhsili 9-cu sinif əvəzinə 10-cu sinif ilə müəyyən edilib və şagirdlər məcburi təhsili 10-cu sinif də daxil olmaqla alacaqlar.

## GÜRCÜSTANDA ƏN AŞAĞI ƏMƏKHAQQI TƏHSİL SAHƏSİNDƏDİR




2024-cü ilin birinci rübündə Gürcüstanda orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 13,2 faiz (226,8 lari) artıb və 1943,4 lari təşkil edib. Bu barədə Milli Statistika Xidməti məlumat yayıb.

Məlumatda bildirilir ki, Gürcüstanda ən yüksək əməkhaqqı maliyyə və sığorta sahəsində qeydə alınıb.

***Digər peşə sahələrində isə orta aylıq əməkhaqqı aşağıdakı kimidir:***

• Maliyyə və sığorta işləri – 4519,4 lari (ötən ilin eyni dövrü ilə müqayisədə 20,2 faiz artıb);

• İnformasiya və kommunikasiya – 3956,5 lari (9,0 faiz artıb);

• Peşə, elmi və texniki fəaliyyətlər – 2672,7 lari (12,0 faiz artıb);

• Tikinti – 2624.6 lari (22,3 faiz artıb).

Təhsil sahəsinə gəldikdə isə, 2023-cü ilin birinci rübündə orta aylıq əməkhaqqı 1009 lari, 2024-cü ilin eyni dövründə 1126 lari təşkil edib ki, bu da ən aşağı əməkhaqqının yenə də təhsil sahəsində olduğunu göstərir.

## GNOMO WISE: GÜRCÜSTANDA UŞAQLARA YALNIZ AŞAĞI ƏMƏKHAQQI OLAN MÜƏLLİMLƏR DEYİL, HƏM DƏ AŞAĞI KVALİFİKASİYALI MÜƏLLİMLƏR DƏRS KEÇİR




Gnomon Wise təşkilatı Gürcüstanda təhsildə problemlər, problemlərin təsviri və analizini əhatə edən yazı dərc edib. Yazıda həmçinin problemlərin həlli üçün lazımi dəyişikliklərə, ümumtəhsil sistemi islahatının əsas istiqamətlərinə diqqət yetirilir. Tədqiqatda kvalifikasiyası olmayan müəllimlər sistemin əsas problemlərindən biri kimi göstərilir.

*"Təhsilə qoşulmuş insan resursu xüsusi problemdir. Ümumtəhsil müəssisələrində işləyən pedaqoqların sayı 63.7 min təşkil edir. Bu, ümumilikdə işlə təmin olunanların 6,9 %-dir. Müəllimlərin 90,5 %-i isə ictimai məktəbdə işlə təmin olunub. İqtisadi sektorlara görə ən aşağı əməkhaqqı olan sahə təhsil sahəsidir. Bu sahədə 2022-ci ildə orta aylıq əməkhaqqı 747 lari idi. Həmin dövrdə ümumi orta aylıq əməkhaqqı 1040 lari təşkil edirdi. Bir sözlə, gələcək nəslin yetişdirilməsi ən aşağı əməkhaqqı olan peşələrdən biri kimi formalaşıb. Bu, həmin sahədə yüksək ixtisaslı kadrların yer alması yolunda maneə yaradır.*

*İşlə təmin olunan müəllimlərin ixtisaslı olması məsələsi də böyük problemdir. 2010-cu ildən tətbiq edilmiş ixtisas imtahanlarında iştirak edən müəllimlərin böyük hissəsi öz fənnində minimal ixtisas həddini təmin etmir. Məsələn, birinci il imtahanda iştirak edən müəllimlərin yalnız 11 % minimal keçidi aşıb. Buna baxmayaraq, onlar məktəbdə dərs deməyə davam edirlər. Çünki sektor yeni və ixtisaslı kadrları cəlb edir.*

*Nəticə olaraq, uşaqlara yalnız aşağı əməkhaqqı olan deyil, həm də aşağı kvalifikasiyalı müəllimlər dərs keçirlər. Bu ağır vəziyyəti İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təhsil və tədris üzrə beynəlxalq araşdırması da təsdiq edir. Araşdırmaya əsasən, Gürcüstanda ümumtəhsil sektoru ixtisaslı gənclər üçün daha az cəlbedicidir. Ona görə də Gürcüstanda müəllimin orta yaşı 50,4-dür. Araşdırmada iştirak edən ölkələrdə müəllimin orta yaşı 43,4-dür. Hətta 2013-cü ildən bəri vəziyyət yaxşılaşmayıb",* – Gnomon Wise təşkilatının tədqiqatında deyilir.

## QEYRİ-GÜRCÜDİLLİ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİ KOMBİNƏ EDİLMİŞ VƏ XÜSUSİ MÜƏLLİM İMTAHANINI ANA DİLİNDƏ VERƏ BİLƏCƏKLƏR



2025-ci ildə qeyri-gürcüdilli məktəblərdə çalışan ibtidai sinif müəllimləri kombinə edilmiş (birləşdirilmiş), eləcə də xüsusi müəllim imtahanını Azərbaycan və erməni dillərində verə biləcəklər. Bu barədə məlumatı Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi yayıb.

***"Etnik azlıq nümayəndəsi olan müəllimlərin öz ana dilində hər hansı fənn üzrə kompetensiyanı yüksəltmək imkanı bu gün də var. İstisna yalnız kombinə edilmiş və xüsusi müəllim imtahanlarında idi. Bizim planımız budur ki, 2025-ci ildə etnik azlıq nümayəndəsi olan müəllimlər kombinə edilmiş və xüsusi müəllim imtahanlarını Azərbaycan və erməni dillərində versinlər",*** – deyə qurumdan bildiriblər.

***Səhifədəki məlumatlar "etaloni.ge" və "bpn.ge" saytlarından götürülüb.***

***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# BİR QOCAMAN ŞAİR VARDI QOÇULU ELİNDƏ





Qoçulu elində ömrü əsrə bərabər bir şair yaşayırdı Dünyamalı Kərəm adlı. Biz 26 iyulda dəyərli şairimizi itirdik – ruhumuzda, yaddaşımızda özəl yeri olan Dünyamalı müəllimi. Ömrünün 104-cü ilində əbədiyyətə qovuşdu qoca çinar...

Çoxəsrlik Borçalı mədəniyyətinə və ədəbiyyatına əvəzsiz töhfə vermiş şairimiz ömrünün böyük hissəsini xalqımızın maariflənməsinə, inkişafına və mədəniyyətinə həsr etmişdir. O, 1920-ci ildə Borçalı mahalının Qoçulu kəndində anadan olub. Onun doğum tarixi ilə bağlı müxtəlif məlumatlar vardır. Bəzi mənbələrdə onun 1922-ci ildə anadan olduğu göstərilmişdir. Dünyamalı müəllimin tərcümeyi-halı yazılmış mənbələrdən birində anası Xatun xanımın "mənim oğlum yeni hökumət gələndə doğulub" sözləri də yer alıb.

Onun həyatı əzablarla, çətinliklərlə dolu olub. 1936-cı ildə atası Kərəm Sibirə sürgün edilib. Bu onun həyatına təsirsiz qalmayıb. Ailə başçısını itirdikləri üçün onun böyük ailəsi kasıbçılıq və əziyyət çəkməli olub. Ancaq anasının fədakarlığı sayəsində onda olan oxumaq həvəsi ölməyib. Balaca Dünyamalı ibtidai təhsilini öz kəndlərində aldıqdan sonra orta təhsilini qonşu İmirhəsən tam orta məktəbində alıb. 1937-1940-cı illərdə Tiflisdəki Pedaqoji Məktəbdə təhsilini tamamlayıb. O, oxumaqla yanaşı ilk yazılarını yazmağa başlayıb. Onun ilk məqalələri "Al bayraq" qəzetində çap olunub.

Təhsil ocağını bitirən Dünyamalı müəllim təyinatla İmirhəsən və Qoçulu kənd orta məktəblərində direktor kimi çalışıb. Qeyd etmək lazımdır ki, Qoçuluda ilk 7 illik məktəbin açılması onun adı ilə bağlıdır. Dünyamalı Kərəm həyatında müəyyən zirvəyə çatsa da bu onu qane etməyib. Ali təhsil almaq arzusu onu Azərbaycana, Bakıya gətirib. O, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub və 1954-cü ildə təhsilini başa vurub.

Pedaqoji fəaliyyəti dövründə Dünyamalı Kərəm minlərlə gəncin təhsilinə, maariflənməsinə və inkişafına əvəzsiz töhfə vermişdir. Ədəbi yaradıcılığı, eyni zamanda jurnalist kimi fəaliyyəti onu Borçalı mahalının hər bir bölgəsində yaşayan insanlarımızın sevimlisinə çevirmişdir. Uzun müddət "Kommunist" qəzetində çalışdıqdan sonra "Sovet Gürcüstanı" qəzetində məsul katib işləyib. O, Azərbaycanın gözəl diyarı olan Qarabağda, Xankəndində də jurnalist kimi çalışıb. Ömrünün bütün dönəmlərində xalqına xidmət etməklə onun milli kimliyinin, dəyərlərinin, mənəviyyatının zənginləşməsinə misilsiz töhfələr vermişdir.

Dünyamalı Kərəm dövlətimiz tərəfindən müxtəlif mükafatlara layiq görülmüşdür. O, "Şöhrət" ordeni ilə təltif edilmişdir. Gürcüstanın əməkdar jurnalisti olan Dünyamalı müəllimin qələmindən çıxan yazılar Borçalı yurdunun hər bir evinin qonağı olub zaman-zaman. 1994-cü ildə "Borçalım mənim" adlı şeirlər kitabı nəşr olunub. Bununla yanaşı onun müxtəlif dövrlərdə 7 kitabı, yüzlərlə elmi məqaləsi dərc olunub. Dünyamalı Kərəm 1979-cu ildə Gürcüstan SSR-nin "Əməkdar jurnalisti" fəxri adına layiq görülüb.

Dünyamalı Kərəm ömrünün böyük hissəsini "Sovet Gürcüstanı"nda keçirsə də "Şöhrət" ordeninə məhz müasir Gürcüstan dövləti tərəfindən layiq görülüb. Dünyamalı müəllim iki fəxri fərmanla təltif olunub. Dəyərli ziyalımız bir çox nəslin inkişafına, formalaşmasına, mənəviyyatının zənginləşməsinə böyük əmək sərf etmişdir. Dünyamalı Kərəm kimi insanlar bizim milli sərvətimizdir. Onun keçdiyi həyat yolu hər birimiz üçün örnəkdir.

Dünyamalı Kərəm dəyərli şair-jurnalist olmaqla yanaşı böyük ailə başçısıdır. Onun övladları şairin mənəvi dəyərlərinin daşıyıcısıdırlar. Eyni zamanda onun müəllimlik peşəsini də şərəflə və qürurla daşıyan oğlu var. Dünyamalı müəllimin yubiley tarixləri həmişə təntənəli şəkildə qeyd olunub. Qeyd etmək istəyirəm ki, şairin 100 illik yubileyi Bakıda Beynəlxalq Muğam Mərkəzində keçirilib. Həmişə insanın uzun ömür yaşaması özündən asılıdır deyən uzunömürlü şairimiz sonuncu kitabını "Mən ki 100 il yaşamasam" adlandırıb.

Ümidvaram ki, Dünyamalı Kərəm xalqımızın yaddaşında həmişə yaşayacaq. Onun zəngin irsi nəsildən nəslə ötürüləcək heç vaxt unudulmayacaq. Onun aşağıdakı şeirində dediyi kimi, o, əsl şöhrət qazanmış, xalqının sevimli şairi, ziyalısı olmuşdur:

*Günəş bərq vuranda ulduzlar sönər,*
*Uca dağ başına buludlar enər.*
*Dünya yaşadıqca yaşayar hünər.*
*Qondarma şan-şöhrət istəmirəm mən,*
*Nəyəmsə, həqiqət istəyirəm mən.*

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*

# QƏZALI EVDƏN QEYDLƏR



Mən bu qeydlərimi Schiedamda Parallelstraat və Emmastraat küçələrinin kəsişməsində yerləşən taunhaus mənzillərin birində yazıram. Mənzil qəzalı vəziyyətdədir, bir tərəfi çöküb. Bunu adi gözlə də görmək mümkündür. Yumurta qoysan otağın bu başından o başına diyirlənər. Burası belə. Mənzlin sahibi Valter olduqca səmimi, gənc bir hollanddır. Qəzalı mənzili kimlərəsə kirayə veribmiş. Kirayənişinlərin mərakeşlilər olduğunu evdə qalan sürücülük vəsiqəsindən öyrənirəm. Qurddanquşluq buna deyirlər də, mənə deyən gərək ki, bir işi də bilməsən dünyamı dağılacaq. Kirayənişinlər də əlləm-qallam işlərlə məşğul imişlər. Polis də bir neçə həftə əvvəl evdə əməliyyat keçirərək evin altını üstünə çeviribmiş. İndi biz atım-atım edilmiş evdə öz ağlımızla bu hadisədən sonra meydana çıxan qırıq-söküyə əl gəzdirməli, kosmetik əməliyyat aparmalıyıq.

Polisin nəyə görə əməliyyat keçirməsi barədə ev sahibinin verdiyi bilgiləri bir kənara qoyuram. Nədən ki, təfərrüatlara varsam uzun çəkər, üstəgəl də, mövzunu yaralamış olaram və ora-burası çiy qalar, məni də peşəkar olmamaqda qınayarlar və yaza bilmirsən, get özünə başqa sənət tap da deyə bilərlər. Ondan sonra gəl bu dinazdan qurtar, görüm necə qurtarırsan.

Üçmərtəbəli evin girişindən başlayan dik pilləkənlər səni ikinci qata çıxarır.

Sola dönüncə səni üçüncü mərtəbəyə qaldıracaq daha bir pilləkən qarşına çıxır. Elə bu pilləkənə paralel qapıdan eyvan, mətbəx, qonaq otağı və bir yataq otağından ibarət ikinci mərtəbəyə daxil olursan.

Eyvandan baxınca paralel evlərin yaratdığı düzbucaq biçimli arxa həyəti görürsən. Ümumi evin hər bir mənzilinin damı bərabərtərəfli üçbucağı andırır. Mən arxa həyəti iş fasilələrimdə müşahidə edirəm. Fasilə də birdimi, beşdimi? Adama bu yerdə kinayə dolu: "Çox işləyibsən, ayıb olar, dincini al" – desələr inanın ki, yeri var. Nə isə, mən günəğarşılana-günəğarşılana həyəti bürüyən yaz yaşılının seyrinə dalıram. Çiçəkləmiş alma ağacı, ondan o tərəfdə salxım çiçəkləri göyə baxan, indiyədək rastlaşmadığım, enliyarpaq böyük ağac, sol tərəfdə çətiri az qala həyətin yarısını tutan bir-birinə qovuşmuş iynəyarpaqlılar, yarpaqları zoğal yarpaqlarına bənzəsə də, zoğal olmadığı bəlli olan ağaclıq diqqətimi öz üzərlərinə çəkmək üçün gözəlliyinin qədrini bilənlər misalı təşəbbüs belə göstərmir. Elə baxışlarımın özü onlara ilişib qalır. Harda aş, orda baş saxsağan salxım çiçəkli ağacda yuva qurmaq üçün dimdiyində çör-çöp daşıyır. Xalq inamlarımızda saxsağanın qapıda-bacada görünməsinin xeyirə yozulduğunu, onun xeyir xəbərin muştuluqçusu sayıldığını da yadıma salıram və bunun mövzuya bir damcı aidiyyatının olmadığını da bilməmiş deyiləm.

Üçüncü qata, əslində buna üçüncü qat yox, evin damı deməliyəm, qalxınca kiçik dəhliz, dəhlizin başında hamam, biri nisbətən böyük, digəri iki siçan dalaşsa biri tavaya düşən, olduqca darısqal otaq səni qarşılayır. Təsvir etdiyim bu mənzilin ümumi yaşayış sahəsi, sizi inandırım, özünü öldürsə 70-80 kvadratmetrdən artıq olmaz.

Üçüncü mərtəbədə də eyvan var. Sərinləmək istəyəndə otur, sözün gəlişi, çayını iç, ya da dəli sözü, yalandan-gerçəkdən bir bəhanə tap, feministlərin gözündən iraq, arvadla ağızlaş, çıx eyvana, göyüzünün mavisinə, ağacların yaşılına baxa-baxa, ayağını bir-birinin üzərinə aşıraraq, Tanrının-bəndənin acığına özün üçün təkliyin ləzzətini çıxar.

Belə mənzilləri iki-üç nəfər də kirayə edə bilər, cibinə gənəşib bir nəfər də. Yadıma düşmüşkən, Niderlandda mənzillərin kirayəsi qonşu Almaniyaya, Belçikaya baxanda çox bahadır. Bizimkilərlə müqayisə etməyə isə heç dəyməz. Təxminən 350-400 min avro dəyəri olan belə mənzillərin aylıq kirayəsi 1200-1500 avro civarındadır. Ağzımızda Avropa deyirik, başqa nə cür olmasını istəyirsiniz ki?

Orasını da deyim ki, burada mənzillər mətbəx avadanlığını çıxmaqla digər əşyalar olmadan kirayəyə verilir. Lüt dörd divar. Qalanı kirayənişinin boynundadır. Kirayənişin evi kirayə götürdükdən sonra zövqünə və büdcəsinə uyğun mənzili döşəmək, doldurmaq qayğısına qalır. Büdcəsi imkan verdikdə yeni əşyalar alır. Məsələn, "İKEA" kimi bir mağazadan. Büdcəsi zəifdirsə internetdən araşdırıb, ikinci əl, işlənmiş ucuz əşyalar tapır. Yox, cibi boşdursa, əlxızandırsa küçələrin canına düşür, istifadəyə yararlı avadanıqla kirayə mənzilini bir-iki günün içində iynədən sapa döşəyib, insan yaşayan vəziyyətə salır, pulu da qalır cibində. Elə pal-paltar məsələsini də bu yöntəmlərlə həll etmək mümkündür. Bunları da yazdım ki, buralara yönünüz düşsə, sizi hansı sürprizlərin qarşılayacağını bəri başdan biləsiniz.

Bilirəm, sizin də çox danışanlıqdan, uzunçuluqdan xoşunuz gəlmir. O üzdən də qısa kəsirəm.

De, salamat qalın, özünüzü qoruyun...

**Afiq MUXTAROĞLU**
*Niderland Krallığı*
*22 aprel 2021-ci il*

# MİLLİ MƏTBUATDA İZİMİZ



**22 iyul** Azərbaycan zərdablı Həsən bəyin böyük çətinliklərlə ərsəyə gətirdiyi "Əkinçi" qəzetindən başlayan Mətbuat Gününü qeyd edir. Gəlin biz də Gürcüstanda azərbaycandilli milli mətbuatda o gündən bu günə öz izimizi axtaraq.

Həsən bəy Zərdabi orta təhsilini Tiflisdə almışdı, əlbəttə, ilk təhsili dövrünün Zərdab mollaxanası olmalıydı. Deməli, bizim məzunlardandır.

Cənubi Qafqaz xalqalarının mədəni inkişafında Tiflisin yeri danılmazdır. Məcidi Şuşadan, Cəlili Naxçıvandan, Fətəlini Şəkidən və s. Tiflisə gətirən də bu mərkəzləşmiş şəhərin ab-havası idi. Buradakı mədəni mühitin axarına düşməklə daha tez Şimala çatmaq olardı. 1801-ci ildən Gürcüstanı özünə birləşdirən Çar Rusiyası əhalini sakit saxlamaq üçün "qılıqlamalı" idi axı. Bu da onun siyasəti idi...

"Tiflisskiye vedemosti" adlandırılan qəzet rus, erməni, gürcü, fars dillərində 1828-ci ildən nəşr olundu. Rusiya İranla bölüşdürdüyü Azərbaycanın Şimalını əvəl fars kimi qəbul edirdi, "Tiflis əxbarı" ("Tiflis xəbərləri") adlanan fars dili əlavəsinə abunə və maraq çox cüzi olduğundan nəşr dayandırıldı. Bu dəfə də çar rejimi ya bilərəkdən, ya bilmədən özünə daha əvvəl birləşdirdiyi tatarlarla eyni dil olduğunu düşünərək bu dəfə qəzeti 1832-ci ildə tatar dilində nəşr etdirdi. "Tatarlar" adı da Tiflis türklərinə ümimiləşmiş ada çevrildi. Beləliklə, Rusiyada tatarlar adlandırılan türklər öz ana dillərində ilk mətbuat nümunəsi gördülər. Düzdür, burada redaktor qeyri-türk olsa da, burada Abbasqulu ağa Bakıxanovun silsilə yazıları tariximizdən, ədəbiyyatımızdan xəbər verirdi. O, həm də tarix, ədəbiyyat, mədəniyyət üzrə məsləhətçi idi. Qəzetə Türkiyədən də abunə vardı. Redaktor Yenikolapov Şərq dillərini, o cümlədən türk dilini də yaxşı bilirdi, üç il sonra o öldükdən sonra nəşr dayandırıldı. Zamanla artıq onu əvəz edən müxtəlif mətbu orqanlar cığıra düşdü və onların növbəsində çox xeyli sonra "Əkinçi" 1875-ci ildə sıraya gəldi.


ТИФЛИССКІЯ ВѢДОМОСТИ

Gürcüstan öz mətbuat tarixini yuxarıda yazdığım zamanla eyniləşdirir. Bizimkilər də o tarixi 75 il geriləyir. Niyə? Onsuz da hər ikisi Rusiya tabeliyində idi, deyilmi? Oradan – XVIII əsrdən hələ 100 il keçməli idi ki, milli dirçəlişin vüsəti başlasın, amma təzə işğal dövründə də abunəçi vardı axı. Qəzetin ilk nəşri zamanı 30 tatar, 2 rus abunəçinin olması milli qəzetin qələbəsi deyildimi? Artıq XIX əsrin sonu, XX əsrin əvvəlində təhsil, mədəniyyət, etiraf edək, çox fərqlənmişdi. Mən məmnuniyyətlə etiraf edirəm ki, İrandan çox irəlidə idi. Qəzetlər sırasında ilk dərgimiz də Tiflis mühitinin yetişdirdiyi ədiblərin ərməğanı idi.

"Molla Nəsrəddin" jurnalı ilk dərgi kimi satiranın əsasını Tiflisdə qoydu və 12 il burada fəaliyyət göstərdi. Bəli, bu davamiyyət illər sonra borçalılı məzunumuz Eyvaz Borçalı tərəfindən "Kirpi" kimi gəlib "Mozalan" kimi sancacaqdı... Gürcüstanda Azərbaycan mətbuatını fəxr olunası məzunlarımızdan olan Mədət Çobanov gözəl araşdırmışdır. Sovetlər birliyi dövründə "Sovet Gürcüstanı" və yerli rayon qəzetləri 70 ilə yaxın mütəmadi, nəfis tərtibatda, savadlı, ixtisaşçı, zehnli zəhməti sayəsində fəaliyyət göstərdi. Bu gün onların yeganə varisi "Gürcüstan" qəzetinin yaşı əsri keçib. Gürcüstanda azadlıq hərəkatı başlayanda ilk "İnam" qəzeti Əlixan Düşgünün sayəsində işıq üzü gördü. Keçid dövründə isə bir çox qəzet və jurnallar, hətta uşaqlar, şagirdlər üçün də qəzet, jurnal dərc olundu. Beləcə anadilli mətbuatımız Gürcüstan Respublikasının Konstitutsiyasına uyğun olaraq geniş vüsət aldı.

Bu gün Gürcüstanda azərbaycandilli mətbuat olduqca qürurverici, geniş, əhatəli və günü gündən daha mükəmməlləşir. "Gürcüstan", "Müəllim", "Təhsil", "Maarif", "Yeni yol" qəzetləri fəaliyyət göstərir. Bunula yanaşı, bir neçə infotmasiya – xəbər, mədəniyyət, tarix, ədəbiyyat saytları da fəaliyyət göstərir. Müasir dövrün informasiya itiliyi şəraitində qəzetlər, əlbəttə ki, xəbəri gecikdirə bilərlər, çünki xəbər anında xəbər agentliklərində yayımlanır. Xəbərlərin analizi qəzetlərin üzərinə düşür. Onu da etiraf etməliyik ki, qəzetlər daha savadlı və mətbuat qaydalarına düzgün riayət edirlər. Qəzetlər də bir dərslikdir, odur ki, qəzet oxumağı mütləq mütaliəmizin bir qolu olaraq təbliğ etməli və yaşatmalıyıq.


اكينچى

Bir çox informasiya saytlarımız Azərbaycan dili qrammatikası, ədəbiyyatı, tarixi mükəmməl təbliğ və tədris olunmadığı bir mühitdə fəaliyyət göstərir. Buna görə də çatışmazlıqları məmuniyyətlə bağışlamaq olar. Saytların ətrafına yığdığı abunə sayı Gürcüstanın azərbaycandilli əhalisini ləhcə səviyyəsindən çıxarır. Bax budur əsas böyük iş və məsulliyət.

Sosial şəbəkələrin bol dövründə vətəndaş jurnalistikası da var ki, mətbuatın sərbəst paylaşılan növü deməyim gəlir. Ona görə ki, elə insanlar var, onların yazıları, fikirləri, baxış bucaqları, analizləri heç də analitikdən, jurnalistdən geridə deyil. Səbəb, bəlkə də, kiminsə diktəsi ilə işləməmək, müstəqil fikirli olmaq niyyətidir. Onların oxucu sayı, düzgün fikirləri, xoş niyyətli təbliğləri bəzi qəzetlərdən də, saytlardan da irəlidədir.

Bu gün biz fəxrlə deyə bilərik ki, Gürcüsranda "Tiflis xəbərləri" – "Tiflis əxbarı"ndan başlayan mətbuat cığırından yol aldığı Azərbaycan mətbuatı Borçalıda – Kvemo Kartilidə cığır xəttini çoxdan keçib. Bu yol işıqlarla aydınlanan geniş yollara çevrilib.

22 iyul Milli Mətbuat Günüdür. Mən fikrimi dedim, əlbəttə, Azərbaycan mətbuat tarixini "Əkinçi"dən başlayaraq bu günü bayram qəbul edir. Söhbət anadilli mətbuatdan gedirsə, biz də Gürcüstanda anadilli yazarlar kimi bu günü qəbul etməliyik.

Odur ki, hamımızı təbrik edirəm! Gəlin yazaq, yana-yana yandırmağı bacaraq – Nazim Hikmətin yandırdığı şam kimi. Yazmaq çox asandır əgər oxucu yazını oxuyub mən bu yazıdan nəsə öyrənə bildim deyirsə. Bax budur yazmaq, yandırmaq.




Əziz qələmdaşlarım, hamımıza yanaraq yandırmaq arzu edirəm!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# ALEKSANDRE ORBELİANİ - XATİRƏLƏR

*(əvvəli ötən sayda)*

Həmin gecə atam baş hakimin yanına aparılanda şam yeməyindən sonra idi və hələ də yatmamışdılar, beləcə anam yorğan-döşəkdə qaldı, amma fikrə getdi. Mən onların yaxınlığında öz yorğanımın altından baxırdım, mən də bir təhər bir daha yata bilmirdim. Bəzən anam başını çıxarırdı, divar taxçasında qoyulan Məryəm ananın ikonasına rəhmdilliklə baxırdı və yenidən fikrə gedirdi. Mənim dayəm də mənim yorğan-döşəyimə yaxın yerdə küncdə oturmuşdu. Səsini çıxartmadan anama baxırdı. Əgər nəsə desəydilər, bəli, qısaca, soyuqqanlıqla deyirdilər və yenə sakitləşirdilər. Bu ərəfədə bu sözlərdən narahat olmuş halda atam da gəldi: “Cənab şahzadə, heç nə çıxmayacaq, tamamilə əliboş qaldıq”.

Bundan sonra sözünə davam etdi, hər şeyi dedi: “Ya Kaxetidə nə əhvalat baş verib və ya Markizə nə dedi; və buna görə də biz rus ordusu ilə birlikdə Kaxetiyə getmək niyyətindəyik, Markiz də tezcə gələcək”.

Bununla yanaşı sədaqətli qulluqçu Berelanı yanına çağırdı: “Berela, iki qatırla, mənim yol barxanamı gətir, mənim üçün Dilboz mavi atımı hazırla, səndən başqa yenə altı nəfər qulluqçu da gəlsin. Onların da yaxşı atları var, indi təcili Kaxetiyə yola düşməliyik (Mənim gənclik vaxtlarımda atamın daha 15 nəfər qulluqçusu var idi və onlar yaxşı qulluqçular idilər. Tavad üçün canlarından keçən sədaqətli, bütün işlərdə təcrübəyə malik idilər. Yaxşı geyinib-kecinmişdilər. Yaxşı, vicdanlı, dinc, səmimi, düzgün ürəyə malik idilər. Yaxşı silahla silahlanmışdılar, yaxşı igidlər idilər. Çox qəşəng minik atları da var idi. Yaxşı ələ malik idilər və evin xidmətçiləri də idilər. Dəlləklər, aşbazlar, mehtərlər, baytarlar, nalbəndlər idilər, bir sözlə, bu kimi şeylərdə peşəkarlaşmışdılar və nəsə lazımi bir iş çıxanda, hər bir şeydə yaxşı idilər. Atama çəkinəcəkli nə iş lazım olanda, heç bir şeyi özlərinə ayıb bilmirdilər. Təkcə atamın deyil, hər bir tavad oğlunun bu cür qulluqçuları var idi. Bu, bizim ölkənin zamanına görə, kimə nəyin lazım olduğunu bilmək üçün, o dövrkü mühit öyrənilsə, bütün bu kimilər bilirdilər və istifadə edirdilər də. Bunları köhnə qulluqçular gənc qulluqçulara öyrədirdilər və bu birindən o birisinə ötürülürdü ki, onların da bəziləri yazıb-oxumağı yaxşı bilirdilər).

O zamanlar yenə heç bir halda tavad-aznaurlar da açıq-aşkar hazır idilər, Gürcüstan xalqı hamısı birləşmişdi. Amma atam ona nəsə deyirdisə, tamamilə kədərli sözlərlə deyirdi. Anam ona dedi:

– Deyəsən narahatsan, biz nə edək, güc-qüvvət onlardadır və nəyi də istəsələr sənə əmr edə bilərlər.

Atam çevrildi və mənim dayəmə dedi ki, o biri otağa keçsin. O gedəndə atam qapını bağladı və anamın yanındakı skamyada oturdu, bu titrək qəlbin çırpıntıları ilə:

– Mənim şahzadəm, niyə də narahat olmayım. O, bir sizin atanız, mənim çarım İrakliyə və yurda xəyanətkarlıq bəs etmədimi, indi də yenə Baqrationilərə, eləcə də yurduma xəyanətkarlıq edim? Mən gedim və  bir gürcü kişisi, gürcüyə güllə atım, mənim hökmdarlarım Baqrationilərə kömək edənlərə və öz səltənətlərini bir daha bərpa etmək istəyən mülkü azad edənlərə. Biz onlara tüfəngdən güllə atmasaq, bizi arvad-uşaqlarımızla birgə tamamilə öldürəcəklər. Axı, bundan sonra nə edim, narahat olmayım?

– Mənim məsləhətim budur ki, tamamilə kaxetililərin yanında dayanın, gedin, işi bir daha yubatmayın. Burada bizim başımıza, sizin arvad-uşaqlarınızın başına nə gəlsə də, lap elə götürək, tikə-tikə doğrasalar da bu bir şey deyildir, fəqət sizin qardaşınız kaxetililərin arxasında dayanın, – anam qətiyyətlə bunu ona dedi.

– Daha ola bilməz, artıq bir daha heç nə edə bilmərik. Onlar Kartlini tamamilə gücləndiriblər, daha kaxetililərə yaxınlaşmayacaqlar və heç bir iş görmək niyyətində deyillər. Kaxetili tavad uşaqları da orda-burda onlara meyilləniblər, şəksiz, bizim bu əhvalatımızı ruslara çatdırıblar. Bundan sonra heç kimə daha etibar etmək olmaz.

– Yəni hər şey pozuldu, korlandımı?

–  Məhz elədir, mənim şahzadəm.

– İndi nə çarəmiz var, Gürcüstan əsrlər boyu rusların qulu olaraq qaldı...

– Qaldı, qalmadı, bunu Allah bilir. Siz məni bir daha sağ görməyəcəksiniz, mənim şahzadəm. Balalarımızdan muğayat olun, hamiləsiniz, ondan da.

Bu zaman anam ağladı və atam da daha dözə bilmədi. Mən də döşəkdən sıçrayıb zarımağa başladım: “Vay atam, vay atam”,



– dedim. Bu zaman hər ikisi ayağa qalxıb üstümə cumub dedilər: “Sus, yoxsa, budur, qapıda ruslar var, gəlib bizi apararlar”. Qorxudan dərhal susdum. Bundan sonra atam yol paltarını geyindi və bir müddət bayıra bir daha çıxmadı, Berela içəri girəndə “tamamilə hazırıq” dedi. Rusların qorxusundan kim səsini çıxardardı? Qəlbi dolan atam bizimlə sağollaşa da bilmədi, o biri otağa, kiçik qardaşım Dimitriyə doğru yönəldi və yenicə oyanmışa baxdı, mənim dayəm də orada idi, hər ikisinə narahatlıqla dedi:

– Dayə, sizin tərbiyə etdiklərinizdən muğayat olun. Sözünü bitirən kimi dərhal getdi.

O gecə kim yatardı, rusların qorxusundan beləcə sanki susmuş halda oturmuşduq. Yaxşıca işıqlananda bizə çay gətirdilər, onda səsimizi rahat şəkildə çıxartdıq.

Bundan bir həftə sonra xəbər gəldi ki, Saqareco yaxınlığında rus ordusu bədbəxt gürcülər üzərində qələbə çalıb və bu zaman rus ordusunu bizim evimizdən çıxartdılar. Bundan sonra bizə baş çəkənlər rahat gəlib-gedirdilər. Baharın gəlişi vaxtlar idi.

Orada ki, qalib gəldilər, Kaxetinin içərilərinə doğru getmişdilər və bununla yanaşı baş hakim Markiz də gəlmişdi. Nəyə görə davam etməliyəm. Çumlağda kaxetililərlə döyüş olanda, orada atam bir döyüşçü gürcü üçün özünü həlak edib və bundan sonra baş verənləri indi xatırlayırıq.

*(davamı növbəti sayda)*

*Gürcü dilindən tərcümə edən:*
***Mirzə MƏMMƏDOĞLU***

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "ახალი ათლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 İYUL
2024-CÜ İL
№ 14 (209)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANIN HAVA LİMANLARI 3,2 MİLYONDAN ÇOX SƏRNİŞİNƏ XİDMƏT GÖSTƏRİB



Gürcüstanın beynəlxalq hava limanları (Tbilisi, Kutaisi, Batumi) cari ilin yanvar-iyun aylarında 3,2 milyondan çox sərnişinə xidmət göstərib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 30 faiz çoxdur. Bu barədə Gürcüstan İqtisadiyyat Nazirliyi məlumat yayıb.

Məlumata görə, Gürcüstanın beynəlxalq bazarlarda tanıdılması istiqamətində aparılan aktiv marketinq kampaniyaları nəticəsində həm turist axını, həm də sərnişin axını xeyli artıb.

***"2024-cü ilin ilk 6 ayında Gürcüstanın hər üç beynəlxalq hava limanı 3 milyondan çox sərnişinə xidmət göstərib ki, bu da tarixi maksimumdur",*** – nazirliyin açıqlamasında deyilir.

İlin ilk 6 ayında Gürcüstan hava limanları vasitəsilə yüklərin daşınmasının həcmi 23 faiz artaraq 11,02 milyon tona çatıb.

Gürcüstan hakimiyyəti bu il ölkəyə 7,9 milyon xarici turistin ziyarət edəcəyini, turizm gəlirlərinin isə 4,3 milyard dollardan (2023-cü il) 4,5 milyard dollara artacağını gözləyir.

## GÜRCÜSTAN ÇİNDƏN MİNİK AVTOMOBİLLƏRİNİN İDXALINI İKİ DƏFƏDƏN ÇOX ARTIRIB



Milli Statistika Xidmətinin məlumatına əsasən, Gürcüstan 2024-cü ilin yanvar-may aylarında Çindən minik avtomobillərinin idxalını iki dəfədən çox artırıb.

Məlumatda bildirilib ki, cari ilin yanvar-may ayları ərzində **Gürcüstan Çindən ümumi qiyməti 18,6 milyon dollar olan 1,1 min ədəd minik avtomobili idxal edib**, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 116 faiz çoxdur.

Bundan başqa, hesabat dövründə Gürcüstan Çindən 19,9 milyon dollar dəyərində 492 yük avtomobili idxal edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 139 faiz çoxdur.

Gürcüstan, eyni zamanda, Çindən 6,6 milyon dollar dəyərində 83 ədəd xüsusi təyinatlı texnika alıb və bu da ötən ilin eyni dövrü ilə müqayisədə 186 faiz çoxdur.

Bununla yanaşı, Çin Gürcüstanda avtomobil bazarı açmaq niyyətindədir.

Bazarda yalnız Çin istehsalı olan avtomobillərin satışının həyata keçirilməsi nəzərdə tutulub.

## GÜRCÜSTANDA 90 YAŞDAN YUXARI 12100 PENSİYAÇI VAR



Gürcüstanda 851400 pensiyaçı yaşa görə pensiya alır, onlardan 247400-ü kişi, 604 mini qadındır. Bu barədə Gürcüstan Səhiyyə Nazirliyinin Sosial Xidmətlər Agentliyi məlumat yayıb.

2024-cü il iyulun 1-nə olan məlumata görə, pensiyaçıların əsas hissəsini yaşı 75-dən aşağı olan vətəndaşlar təşkil edir.

Gürcüstanda 90 yaşdan yuxarı 12100 pensiyaçı var ki, onlardan 2900-ü kişi, 9200-ü qadındır. Pensiyaçıların demək olar ki, dörddəbiri Tbilisidə yaşayır. İkinci yerdə İmereti bölgəsi, üçüncü yerdə isə Sameqrelo-Zemo Svanetidir.

Pensiyaçıların ən az sayı Quriya, Mtsxeta-Mtianeti və Raça-Leçxumi – Zemo Svaneti bölgələrindədir.

Gürcüstanda qocalığa görə pensiya qadınlara 60, kişilərə isə 65 yaşdan sonra verilir. 2024-cü il yanvarın 1-dən dövlət pensiyasının məbləği yaşdan asılı olaraq 315 və 415 lari təşkil edir.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 1,8 FAİZ AZALIB



Milli Statistika Xidmətinin məlumatına əsasən, Gürcüstanın xarici ticarət dövriyyəsi 2024-cü ilin yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə 1,8 faiz azalaraq 10,3 milyard dollar (pərakəndə ticarət dövriyyəsi istisna olmaqla) təşkil edib.

Məlumatda bildirilib ki, cari ilin 6 ayı ərzində ölkəyə 7,5 milyard dollarlıq məhsul idxal edilib, ixracın həcmi isə 2,8 milyard dollar təşkil edib. Bu, ötən illə müqayisədə müvafiq olaraq idxalda 0,2 faiz artım, ixracda isə 6,7 faiz azalma deməkdir.

Cari ilin birinci yarısında Gürcüstanın xarici ticarət dövriyyəsində 4,6 milyard dollar mənfi saldo yaranıb ki, bu da ötən illə müqayisədə 4,9 faiz çoxdur.

## ÖTƏN İL GÜRCÜSTANDA 149 NƏFƏR İTKİN DÜŞÜB




Gürcüstan Daxili İşlər Nazirliyinin hesabatına əsasən, ötən il Gürcüstanda 149 nəfər itkin düşüb, onlardan 16-sı ölü olmaqla, 89-u tapılıb, 60 nəfər barədə hələ də məlumat yoxdur.

Hesabatda bildirilir ki, 2023-cü ildə itkin düşmə hallarının 54-ü Tbilisidə, 24 nəfəri Sameqrelo-Zemo Svaneti bölgəsində, 20-si isə Kvemo Svaneti və digər bölgələrdə qeydə alınıb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.